## H.Əhməd ŞMİEDE



*Əziz, möhtərəm qardaşım Sabir Rüstəmxanlı!*

*Mənə "Ömür kitabı" adlı əsərinizi göndərmisiniz. Sizə çox-çox təşəkkür edirəm. Keçən il "Azərbaycan" jurnalında o kitabın ixtisar edilmiş parçalarını oxuyandan bəri bu əsərin röyası ilə yaşayıram. Sizdən gizli deyil ki, mən Azərbaycanın dəlisiyəm, ümumən türk mədəniyyətinin məftunuyam. Hələ kitabı bütövlükdə oxuyub qurtarmamışam. Ancaq mənə gün kimi aydın oldu ki, bu əsər odlu bir vətənsevərin ürəyindən qopub. Özü də ki, Qərbdəki erməni propaqandasına cavab vermək üçün mənə gözəl və tutarlı məlzəmə verib. Yəqin ki, ondan dönə-dönə müstəfid olacağam.*

*Sizə də, mənə də məlumdu ki, Avropa və ABŞ-da olduqca güclü bir erməni lobbisi vardır. Onlar burada, xüsusən alman xalqını inandıra bilmişlər ki, guya ermənilər yazıqdı, vəhşi müsəlman azərbaycanlılar xristianları qırır, torpaqlarını oğurlayır. Eynən faşistlərin yəhudilərə tutduğu divanı türklər ermənilərə tuturlar. Faşist imperiyasının dəhşətli mirasından guya yaxa qurtarmaq üçün indiki almanlar bu ağ yalana inanır, yazıq, zavallı erməni xalqına (bəziləri xalisən, bəziləri də nömrədən) kömək çıxırlar. Bunlara söz qandırmaq olduqca çətindir. Bəziləri "nömrədən" deyiminin səbəbi budur ki, onların həqiqi məqsədi "yazıq" bir xalqa kömək etməkdən çox, Sovetlər İttifaqını parçalamaq üçün xırda xalqları bir-birinə düşürməkdir.*

*Möhtərəm Sabir müəllim, Sizə bir də ürəyimcə təşəkkür edirəm. Gün o gün olsun ki, biz şəxsən tanış olaq. Yəqin ki, bir-birimizə deyiləsi sözlərimiz çoxdur. Bağışlayın, bu məktubu yazdığım bilgisayarda Azərbaycan latın əlifbasının bəzi hərfləri yoxdur. Günahımdan keçin.*

*Sizə möhkəm cansağlığı və yaradıcılıq müvəffəqiyyətləri diləyirəm. Tanrı sizə həmişə yar olsun.*

*Almaniya, 24.07.1989*